

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 42 (23.929)

2 mart 2022-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Azərbaycan-BMT əlaqələrinin inkişafı davamlı xarakter daşıyır

*Çoxsaylı ölkələri özündə birləşdirən Birləşmiş Millətlər Təşkilatı dünyanın ən nüfuzlu beynəlxalq təşkilatıdır. Azərbaycan 1992-ci il martın 2-də bu təşkilata üzv seçilmiş, ölkəmizin dövlət bayrağı həmin gün Nyu-Yorkda qaldırılmış, may ayının 6-da isə Azərbaycanın BMT nəzdində Daimi Nümayəndəliyi açılmışdır. Bu, Azərbaycan xalqının müstəqil və suveren dövlətə sahib olmasının dünya tərəfindən hüquqi olaraq tanınması demək idi. Ümummilli liderimiz Heydər Əliyev BMT-nin 50 illiyinə həsr edilmiş təntənəli tədbirdə bu məsələ ilə bağlı demişdir:* ***"Biz tarixdə ilk dəfə müstəqil Azərbaycan Respublikasının dünya birliyində bərabərhüquqlu yer tutduğuna görə fəxr edirik".***

Azərbaycan BMT-yə 1992-ci ildən üzv olsa da, bu sahədə uğurlu əməkdaşlığın əsası bir il sonra – xalqımızın ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ilə qoyulmuşdur. Məhz BMT ilə əlaqələrin sistemli şəkildə qurulması bu nüfuzlu qurumun platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə cəlb etmək mümkün olmuşdur. Müstəqil Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə ulu öndər Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT Baş Assambleyasının 49-cu sessiyasında çıxış edərək Azərbaycan, Qafqaz regionu və ümumilikdə, dünya üçün həyati əhəmiyyət kəsb edən qlobal məsələlərlə bağlı ölkəmizin mövqeyini dünya ictimaiyyətinə çatdırmışdır. 2000-ci ilin sentyabr ayında BMT-də minilliyin sammitində çıxışı zamanı da ümummilli liderimiz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Azərbaycanın mövqeyini bir daha bəyan etmişdir. Ölkəmizin təşəbbüsləri nəticəsində BMT-nin Təhlükəsizlik Şurası keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etmiş və bu qətnamələr Azərbaycanın ərazi toxunulmazlığını bir daha təsdiq edərək işğalçı qüvvələrin ölkə ərazisindən dərhal çıxarılması tələbini irəli sürmüşdür.

Xalqımızın böyük oğlu Heydər Əliyev tərəfindən əsası qoyulan xarici siyasət kursunu layiqincə davam etdirən ölkə başçısı cənab İlham Əliyev BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi bu qətnamələrin hələ də yerinə yetirilmədiyini vurğulayaraq onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını irəli sürmüşdür. Bununla yanaşı, həmin il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salınmışdır. Daha sonra Baş Məclisin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci plenar iclasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamə qəbul edilmişdir. 2008-ci il martın 14-də BMT Baş Məclisinin 62-ci sessiyasının gündəliyində iyirminci bənd kimi duran "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət barədə" qətnamə Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstək vermiş, işğal olunmuş bütün ərazilərdən Ermənistan qüvvələrinin tam və qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Dövlət başçısı 2010-cu ilin sentyabrında BMT Baş Məclisinin 65-ci sessiyasında çıxış edərək təşkilatın üzvlərinin diqqətini bir daha Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə yönəltmişdir. Ölkə rəhbəri Ermənistanın münaqişə zamanı çox ağır beynəlxalq cinayətlər törətdiyini, Azərbaycan ərazilərinin 20 faizini işğal etdiyini, işğal zamanı xalqımıza məxsus tarixi və mədəni abidələrin vəhşicəsinə dağıdıldığını bildirmişdir. BMT Baş Assambleyasının 2017-ci il sentyabrın 20-də Nyu-Yorkda keçirilmiş 72-ci sessiyasında dövlət başçısının dərin məzmunlu çıxışı da xarici siyasət sahəsində dövlətimizin qəti mövqeyini və prioritetlərini növbəti dəfə dünyaya nümayiş etdirmişdir.

Təəssüflər olsun ki, dünya ölkələrini bir çətir altında birləşdirən BMT kimi nüfuzlu təşkilatın qəbul etdiyi qətnamələr ikili standartlar səbəbindən uzun illər yerinə yetirilməmişdir. Yalnız 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində ölkəmiz işğal olunmuş ərazilərini ordusunun gücü ilə azad edərək həmin qətnamələrin yerinə yetirilməsini praktik olaraq özü icra etmiş, Azərbaycanın daim dünya ölkələri ilə sülh və dostluq şəraitində əməkdaşlığa böyük önəm verdiyini təsdiqləmişdir. 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında müharibənin başlanmasından bir müddət sonra BMT-nin Təhlükəsizlik Şurasında bəzi dövlətlər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qeyri-obyektiv, qərəzli mövqeni əks etdirən bəyanatın qəbul edilməsinə nail olmaq istəyərkən, Britaniyanın BMT Təhlükəsizlik Şurasındakı Daimi Nümayəndəsi çevik və prinsipial mövqe nümayiş etdirərək ədalətin bərqərar olmasına kömək etmişdir.

Azərbaycan həqiqətlərinin dünya birliyinə tanıdılmasında yüksək tribuna rolunu oynayan BMT ilə əlaqələrin inkişafında son onillikdə daha böyük uğurlar əldə olunmuşdur. 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə 2011-ci ilin oktyabrında keçirilən seçkilərdə Şərqi Avropa dövlətləri qrupundan namizədliyini irəli sürən Azərbaycanın 155 səs toplaması, Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə kimi tarixə düşməsi bunu bir daha təsdiq edir. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərindən biridir. Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"Azərbaycan bu gün beynəlxalq arenada öz mövqelərini gücləndirir, beynəlxalq aləmdə çox böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı getdikcə artır. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik... Biz bütün digər aparıcı beynəlxalq təşkilatlarla çox sıx əməkdaşlıq edirik. Bəzi təşkilatların üzvüyük, bəzi təşkilatlarla əməkdaşlıq çərçivəsində fəaliyyət göstəririk. Dünya birliyi Azərbaycana böyük hörmətlə, böyük rəğbətlə yanaşır. Bu gün dünyanın siyasi xəritəsində Azərbaycanın yeri çox möhkəmdir".*** Ölkəmiz 2012-ci ilin may və 2013-cü ilin sentyabr aylarında Təhlükəsizlik Şurasına sədrlik etmişdir. 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti müddətində Azərbaycan Respublikası bir sıra məsələlərin gündəliyə çıxarılmasına nail olmuşdur. Bu gün Azərbaycan BMT-nin müxtəlif orqanları – Təhlükəsizlik Şurasının Terrorizmə Qarşı Mübarizə Komitəsi, İnkişaf Proqramı, Qaçqınlar üzrə Ali Komissarlığı, Uşaq Fondu, Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Sənaye İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan Olunması haqqında Müqavilə Təşkilatı ilə əlaqələri yüksək səviyyədə davam etdirir.

BMT ilə əlaqələr 2020-ci ildə də uğurla davam etdirilmişdir. 21 sentyabr 2020-ci ildə BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri cənab İlham Əliyev videoformatda çıxış etmişdir. Dövlət başçısı çıxışında BMT-nin gücləndirilməsi və müasirləşdirilməsi, Baş Assambleyanın canlandırılması, beynəlxalq sülh və təhlükəsizlik sahəsində təşkilatın demokratik, məsuliyyətli, şəffaf və təmsilçiliyi təmin edən orqana çevrilməsi üçün BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına çağırmış, təşkilatın qlobal iqtisadi idarəçilikdə rolunun gücləndirilməsini vurğulamışdır. Dekabrın 3-də isə Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri cənab İlham Əliyevin təşəbbüsü ilə Nyu-Yorkda BMT Baş Assambleyasının koronavirus xəstəliyi – COVID-19 ilə mübarizəyə həsr edilən xüsusi sessiyası keçirilmiş, Prezident cənab İlham Əliyev sessiyada videoformatda çıxış etmişdir.

Ötən il BMT ilə əməkdaşlıq özünün yeni mərhələsinə qədəm qoymuşdur. Belə ki, mart ayının 1-də BMT-nin ölkə üzrə idarə heyəti və Azərbaycan Hökuməti 2021-2025-ci illər üçün BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə (UNSDCF) sənədini imzalamışlar. Sayca beşinci olan Əməkdaşlığa dair Çərçivə dörd prioritet sahəni müəyyən edib: həssaslığı azaldan və dayanıqlığı təmin edən inklüziv artım; dövlət və sosial xidmətlərin daha yaxşı göstərilməsi üçün daha güclü institutlar; ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə; qadın və qızların səlahiyyətlərini artıran və gender bərabərliyinə əsaslanan cəmiyyət. Sentyabrın 23-də BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələr zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev videoformatda çıxış etmişdir.

BMT-nin Naxçıvan Muxtar Respublikası ilə əlaqələri də davamlı xarakter daşıyır. 1997 və 2013-cü illərdə Birləşmiş Millətlər Təşkilatının nümayəndələri Naxçıvana səfər edərək burada görüşlər keçirmiş, muxtar respublikanın blokada şəraiti, iqtisadiyyatın inkişaf etdirilməsi məqsədilə həyata keçirilən işlər və digər məsələlər barədə müzakirələr aparmışlar. Ötən dövrdə muxtar respublikada Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Kənd İnvestisiya Proqramı üzrə layihələri icra olunmuş, 2016-cı ildə Naxçıvan Dövlət Universitetində "BMT Modeli" konfransı keçirilmiş, 2017-ci ilin oktyabrında Naxçıvan Biznes Mərkəzində BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsinin iştirakı ilə "Sığınacaqla bağlı müraciətlərin yönləndirilməsi mexanizminin təkmilləşdirilməsi" mövzusunda regional təlim təşkil olunmuşdur. 2018-ci ildə Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı missiyasını uğurla yerinə yetirməsi həm də BMT-nin dünyada sülhün və təhlükəsizliyin təmin olunması işinə töhfə kimi dəyərləndirilmişdir. 2019-cu ildə isə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi vəzifəsini icra edən Alessandro Frakassetti Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində olmuşdur. Həmçinin Naxçıvan Biznes Mərkəzində əsas icraçı tərəfdaşı BMT-nin İnkişaf Proqramı olan və Avropa İttifaqının maliyyələşdirdiyi "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" layihəsinin konfransı keçirilmişdir. Ümumilikdə, indiyədək bu beynəlxalq qurum tərəfindən muxtar respublikada çoxsaylı layihələr təşkil edilmişdir. Ötən ilin oktyabrında Naxçıvan Biznes Mərkəzində Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin və Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının birgə təşkilatçılığı ilə aidiyyəti dövlət təşkilatlarının əməkdaşları üçün "Sığınacaq sistemində yönləndirmə mexanizmləri" mövzusunda təlim olmuşdur.

*Bu gün Azərbaycanın bütün parametrlər üzrə Cənubi Qafqazın lider ölkəsi olmasını inkişaf etmiş dünya ölkələri də etiraf edirlər. Ölkəmizin beynəlxalq şərq-qərb nəqliyyat və ticarət əlaqələrinin inkişafına, qlobal enerji bazarına, ekologiyanın qorunmasına, habelə terrorizmə, irqi və dini ayrı-seçkiliyə qarşı mübarizəyə verdiyi böyük töhfə, günügündən genişlənən sıx əlaqələri onun BMT-də nüfuzlu ölkə kimi tanınmasının bir daha sübutudur.*

**"Şərq qapısı"**

## Hərbi sahədə görülən işlər xidmətin nümunəvi təşkilində mühüm rol oynayır



Bu gün güclü iqtisadiyyatı ilə regionda tanınan ölkəmiz həm də müasir və qüdrətli milli orduya malikdir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, hər bir peşə şərəflidir, ancaq Vətəni qorumaq peşəsi hər bir peşədən üstündür, şərəflidir. Bu gün görkəmli dövlət xadiminin ideyalarının yaşadıldığı muxtar respublikamızda bu müqəddəs peşə sahiblərinə xüsusi diqqət və qayğı göstərilir. Ordu quruculuğu tədbirləri uğurla davam etdirilir, zabitlərin xidmətlərinin nümunəvi təşkili və rahat yaşaması üçün ardıcıl tədbirlər görülür. Muxtar respublikada ordu, birləşmə və hissələrin döyüş qabiliyyəti və maddi-texniki bazası, hərbi qulluqçuların sosial müdafiəsi gücləndirilir, mənzil-məişət şəraiti yaxşılaşdırılır. Bu sahədə görülən kompleks tədbirlər hesabına 44 günlük Vətən müharibəsində naxçıvanlı hərbçilər ordumuzla həmrəylik nümayiş etdirərək torpaqlarımızın azad olunmasında qəhrəmanlıq, cəsarət göstərdilər.

Muxtar respublikamızda ordu quruculuğu sahəsində işlər ötən il də uğurla həyata keçirilib. 2021-ci ildə Naxçıvan şəhərində Mərkəzi Hospitalın, qərargah binasının, iki əsgər yataqxanasının, iki anbarın, hərbi aerodromun, təlim meydanının və Türkiyə-Naxçıvan Dostluq Parkının tikintisi, Culfa və Şahbuz rayonlarında əsgər yataqxanalarının əsaslı təmiri başa çatdırılıb. "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının şəhərciyində yaşayış binası yenidən qurulub, Şərur rayonunda 6-cı Sərhəd Zastavası üçün yeni xidmət və yaşayış kompleksi tikilib. Əlahiddə Ümumqoşun Orduya "Mitsubishi L200", Əlahiddə Sərhəd Diviziyasına "Niva" markalı xidməti avtomobillər, hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə iki ailəyə mənzil, bir ailəyə isə xidməti mənzil təqdim olunub.



Hərbi sahədə görülən davamlı tədbirlər ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyədə qalmasına, möhkəmləndirilməsinə və qüdrətinin artmasına əhəmiyyətli təsirini göstərir.

**Xəbərlər şöbəsi**

## Polis sahə inspektorlarının fəaliyyətinin yeni tələblərə uyğunlaşdırılması ilə bağlı tədbir keçirilib, sahə inspektorları üçün xidməti çantaların təqdimatı olub

*Martın 1-də Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Polis sahə inspektorlarının fəaliyyətinin yeni tələblərə uyğunlaşdırılması ilə bağlı tədbir keçirilib, sahə inspektorları üçün xidməti çantaların təqdimatı olub.*



Tədbiri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov açıb.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, polis polkovniki Rəşad İsmayılov çıxış edərək muxtar respublikada ictimai sabitliyin, təhlükəsizliyin və asayişin qorunmasında əsas faktor olan Daxili İşlər Nazirliyinin fəaliyyəti daim diqqət mərkəzində saxlanılmaqla hərtərəfli dövlət qayğısı ilə əhatə olunmasından ətraflı danışıb. Vurğulanıb ki, Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının fəaliyyəti və qarşıda duran vəzifələr barədə müşavirədəki çıxışında polis sahə inspektorlarının təkmilləşdirilməsinin zəruriliyinə toxunaraq müvafiq tapşırıqlar verib. Bu baxımdandır ki, 2021-ci ilin noyabr ayında Daxili İşlər Nazirliyinin ştat strukturu yenidən hazırlanarkən nazirlik üzrə mövcud olan sahə inspektorunun ştat sayı artırılıb, muxtar respublikada mövcud olan hər bir inzibati ərazi dairəsi üzrə 1 polis sahə inspektoru ştatının yaradılması təmin olunub. Eyni zamanda sahə inspektorlarının fəaliyyətinə nəzarətin və işin səmərəsinin artırılması məqsədilə onların tabeçilik üzrə xidmət sahəsi olan şəhər, rayon polis idarələrinin ictimai təhlükəsizlik şöbələrinə 1 baş inspektor ştat vahidi əlavə edilib, həmin strukturların statusunun yüksəlməsi ilə əlaqədar polis sahə inspektorlarının aylıq əməkhaqqı orta hesabla 23,7 faiz artırılıb.

Diqqətə çatdırılıb ki, göstərilən hərtərəfli dövlət qayğısına, yaradılan şəraitə baxmayaraq, sahə inspektorlarının xidmətində də bəzi nöqsan və çatışmazlıqlar mövcud olub. Polis sahə inspektorlarının fəaliyyətlərinin günün tələbləri səviyyəsində qurulması üçün İctimai Təhlükəsizlik İdarəsi və ərazi polis orqanlarının ictimai təhlükəsizlik xidmətləri polis sahə inspektorlarının fəaliyyətini təkmilləşdirməli, aktiv çalışmalı, sahə inspektorlarının onlara təhkim olunmuş ərazilərdə xidməti vəzifələrini qanunvericiliyin tələblərinə uyğun qurmaları üçün daim əməli köməklik göstərməli, vətəndaşlarla ünsiyyətdə etik qaydalara, nizam-intizama, forma geyim qaydalarına ciddi əməl edilməsini nəzarətdə saxlamalıdır. Habelə vətəndaşların qəbulu və onların müraciətlərinə baxılması işinə ciddi yanaşılmalı, səlahiyyətlərinə aid olmayan müraciətlər daxil olduğu təqdirdə vətəndaşlara hüquqları izah olunaraq aidiyyəti üzrə yönləndirilməlidir.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər nazirinin müavini Zahid Gözəlov çıxışında qeyd edib ki, ictimai təhlükəsizlik xidməti sahəsi üzrə fəaliyyətin günün tələbləri səviyyəsində qurulması, təkmilləşdirilməsi məqsədilə, ilk növbədə, polis sahə inspektorlarının peşə hazırlığı səviyyəsinin yüksəldilməsi istiqamətində proqram hazırlanaraq məşğələlər keçirilib, onlara gündəlik fəaliyyətlərində istifadə olunan sənədlərin tərtibatı və inzibati qanunvericiliyin tətbiqi zamanı düzgün qərarların qəbul edilməsi əyani vasitələrlə izah edilib. Əlavə tədris məşğələləri təşkil olunub, polis sahə inspektorunun vəzifələri xüsusi kitabça formasında çap olunub, əməliyyat şəraitinin təhlili barədə yaddaş və xidməti ərazinin pasport yoxlaması kitabı yenidən hazırlanıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxışında bildirib ki, sahə inspektorlarının fəaliyyət ərazisinin müəyyən edilməsi onların xidmətinin təşkilində əsas rol oynayır. İstər sovetlər dövründə, istərsə müstəqillik əldə etdikdən sonra sahə inspektorlarının fəaliyyət ərazisi qeyri-müəyyən olub. Geniş ərazidə xidmət aparılması sahə inspektorunun fiziki imkanları xaricində olmaqla xidmətin təşkilində problemlər yaradır, sahə inspektoru bu kəndlərə bəzən aylarla gedə bilmirdi. Beləliklə, sahə inspektorunun cavabdehliyi şərti xarakter daşımaqla, inzibati ərazidə hadisə baş verdikdə gəlmə halı istisna olmaqla profilaktik iş aparılmır, ərazidə digər hüquqpozmalar və qanunazidd hərəkətlər qeydə alınmırdı.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə bu sahədə yeni yanaşma – 1 icra nümayəndəsi – 1 sahə inspektoru prinsipinin tətbiq edilməsinə başlanıldı. Lakin nazirliyin əvvəlki hər iki rəhbərliyi bu yanaşmanın əhəmiyyətini dərk etmədiyindən tətbiqi tam həyata keçirilə bilməyib. Hazırda ilk dəfə olaraq muxtar respublikada həyata keçirilməyə başlanıb. Qeyd olunub ki, 1 noyabr 2021-ci il tarixdə təsdiq edilən yeni ştat strukturunda qeyd edilən istiqamət nəzərə alınaraq bir inzibati ərazi dairəsinə 1 sahə inspektoru nəzərdə tutulub, böyük qəsəbə və kəndlərdə, şəhərlərdə isə əhali sayı nəzərə alınmaqla sahə inspektorları bölünüb. Bununla da 1 sahə inspektoru – 1 icra nümayəndəsi prinsipinin tətbiqi üçün tam komplektləşmə aparmaq mümkün olub. Əvvəllər isə sahə inspektorlarının əvəzinə digər xidmətlərin ştat sayının artırılması işdə dönüş yaratmayıb, əksinə, polis əməkdaşlarının özləri tərəfindən qanunazidd əməllərə yol verilməsinə səbəb olub.

Cəlil Rüstəmov bildirib ki, Naxçıvan Muxtar Respublikasında inzibati ərazi bölgüsü zamanı idarəetmənin asanlaşdırılması nəzərə alınıb və inzibati ərazidəki dövlət strukturlarının vahid məkanda xidmət göstərməsini təmin etməyə yönəlib. Ali Məclis Sədrinin birbaşa təşəbbüskarı və müəllifi olduğu ağıllı və vahid mərkəzdən idarəetmə forması




qanunla ayrılan xidməti ərazidə fəaliyyət göstərən bütün qurumların vahid xidmət mərkəzində əlaqəli fəaliyyət göstərməsinə, xidməti əraziyə birgə məsuliyyət daşımağa, ərazinin problemlərini birgə həll etməyə imkan verir. Bu yanaşma xidmətin qurulmasında yenilikdir, çox uğurlu və səmərəlidir. Buna görə də polis sahə inspektorları da bu idarəetmə modelinin bir parçası olmaqla ərazinin icra nümayəndəsi və digər dövlət qurumları ilə birlikdə xidməti vəzifələrini icra etməlidir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə polis sahə inspektorlarının fəaliyyətinin qanunauyğun və səmərəli təşkilinə dəstək məqsədilə onlar üçün xidməti çanta hazırlanıb. Çantada polis sahə inspektorunun fəaliyyətinin əsasını təşkil edən normativ aktlar, sənədləşmə nümunələri, fəaliyyət istiqamətləri üzrə yaddaş, pasport yoxlaması kitabı və xidmətin ardıcıllığını təmin edən digər vasitələr yerləşdirilib. Xidməti çantada bütün istiqamətlər üzrə fəaliyyət qaydası nəzərdə tutulub.

Polis sahə inspektorları "Sahə inspektorlarının xidməti əraziyə nəzarət etməsi və görməli olduğu işlərə dair Yaddaş"ın icrasını nəzarətdə saxlamalı, bu sənəddə göstərilən məsələlər əhaliyə izah olunmalıdır. Sahə inspektorları üçün hazırlanmış xidməti çanta, ilk növbədə, intizamın daha da möhkəmlənməsi üçün vacibdir. Xidməti çanta sahə inspektoruna daha da rəsmiyyət verməklə nüfuzunun artmasına, xidməti fəaliyyətini dərhal sənədləşdirməyə, zəruri blank və sənəd nümunələrinin hər zaman yanında olmasına şərait yaradır. Ondan istifadəyə isə polis sahə rəisləri nəzarət etməlidir. Xidməti çantanın itirilməsi, korlanması və səliqəsiz saxlanması məsuliyyət yaradır. Nazirliyin aidiyyəti qurumları xidməti çantada olan istiqamətverici sənədlərin təkmilləşdirilməsini, yeni vəzifələr müəyyənləşdikcə yenilənməsini, o cümlədən sənədlərdən düzgün istifadə olunmasını nəzarətdə saxlamalıdırlar.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru slaydlar vasitəsilə xidməti çanta ilə bağlı məlumat verib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov tədbirə yekun vuraraq tətbiq olunan yeniliklərin polis sahə inspektorları tərəfindən daim diqqətdə saxlanılacağına əminliyini ifadə edib, onlara işlərində uğurlar arzulayıb.

Sonda polis sahə inspektorlarına xidməti çantalar təqdim olunub, polis sahə inspektorunun fəaliyyətinə və yaradılmış xidmət şəraitinə həsr olunmuş filmə baxış olub.

**"Şərq qapısı"**

## *"Ailə rifahı naminə qadınları maarifləndirək"* layihəsinin açılış konfransı keçirilib



***Dünən İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi tərəfindən maliyyələşdirilən "Ailə rifahı naminə qadınları maarifləndirək" layihəsinin açılış konfransı olub.***

Əvvəlcə qonaqlar xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub və Heydər Əliyev Muzeyində olublar. Burada qonaqlara ulu öndərin xalqımıza həsr etdiyi mənalı ömür yolu və parlaq siyasi fəaliyyəti haqqında məlumat verilib.

Sonra tədbir Naxçıvan Biznes Mərkəzində layihənin açılış konfransı ilə davam edib. Konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova açıb. Qeyd edilib ki, ölkəmizdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən sosial-iqtisadi siyasət əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət edir, sosial siyasətin tərkib hissəsi olan dövlət qadın siyasəti də uğurla reallaşdırılır. Göstərilən diqqət və qayğının nəticəsində qadınların digər sahələrdə olduğu kimi, iqtisadiyyatın və kənd təsərrüfatının aparıcı sahələrində də bacarıqlarının ortaya qoyulmasına münbit şərait yaranır. Bu gün muxtar respublikada fəal əməklə məşğul olan və iqtisadiyyatın müxtəlif sahələrində işləyən əhalinin 33 faizini qadınlar təşkil edir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafına dövlət qayğısının nəticəsində qadın sahibkarların da sayı ildən-ilə artır. Hazırda muxtar respublikada sahibkarlıq fəaliyyəti ilə yanaşı, ailə təsərrüfatlarının inkişafına da böyük diqqət göstərilir. Xüsusi qayğıya ehtiyacı olan ailələr özünüməşğulluq proqramına cəlb edilir. Bu da ailə təsərrüfatlarının inkişafına öz təsirini göstərir. Təkcə 2021-ci il ərzində 330 ailə özünüməşğulluq proqramına cəlb olunub ki, bunun da 116-sı qadındır.

Göstərilən qayğının nəticəsidir ki, ildən-ilə ailə təsərrüfatlarının sayı artır. Belə ki, hazırda 1209 ailə təsərrüfatı qeydiyyata alınıb, bunun da 98-i qadınlar tərəfindən idarə olunur.

Çıxışda qadınların sahibkarlıq fəaliyyətinin dəstəklənməsi üçün ötən 3 il ərzində icra olunan layihələrdən də bəhs edilib. Qeyd olu-



nub ki, həmin layihələr çərçivəsində aztəminatlı və sağlamlıq imkanları məhdud olan 128 qadına maliyyə dəstəyi göstərilib.

Qeyd olunub ki, növbəti layihənin əsas məqsədi Naxçıvan Muxtar Respublikasında yaşayan 50-dən artıq qadına və onların ailələrinə iqtisadi dəstək göstərilməsi, onların sahibkarlıq fəaliyyətinə təşviq edilməsidir.

Ramilə Seyidova göstərilən diqqət, qayğı və yüksək dəstəyə görə layihə iştirakçıları adından dövlətimizə minnətdarlığını bildirib.

Azərbaycan Mikromaliyyə Assosiasiyasının İdarə Heyətinin sədr müavini Süleyman Kələşov çıxış edərək bildirib ki, "Ailə rifahı naminə qadınları maarifləndirək" layihəsi Azərbaycan Mikromaliyyə Assosiasiyasının Naxçıvan Muxtar Respublikasında həyata keçirdiyi 4-cü layihəsidir. 2018-ci ildən bu günədək 386 qadın müxtəlif layihələrdən bəhrələnib, ümumilikdə, 128 qadın 86 256 manat dəyərində sərmayə kapitalı alaraq sahibkarlıq fəaliyyətlərinə başlayıb. Diqqətə çatdırılıb ki, belə layihələrin icrası qadın sahibkarlığının inkişafına böyük təsir göstərməklə yanaşı, dövlətin qarşıya qoyduğu iqtisadi məqsədlərin reallaşmasında da əhəmiyyətli rol oynayır.

İlk dəfə Naxçıvanda olduğunu qeyd edən İsveçrənin Azərbaycan Respublikasındakı səfirinin müavini, Cənubi Qafqaz üzrə İsveçrə Əməkdaşlıq Təşkilatının Regional direktorunun müavini Alberto Hernandez 2011-ci ildə İsveçrə prezidentinin muxtar respublikaya səfərini xatırladıb və ölkələrimiz arasındakı müxtəlif sahələr üzrə səmərəli əməkdaşlıqdan bəhs edib.

Azərbaycan Mikromaliyyə Assosiasiyasının icraçı direktoru Jalə Hacıyeva bildirib ki, layihələrin icra olunmasında əsas məqsədlərdən biri qadınların potensiallarından maksimum istifadə etməklə makro və mikro sahibkarlıqda qadınların rolunun artırılmasına təkan verməkdir. Həmçinin bu cür təşəbbüslər ölkədə məşğulluğun artırılmasına da əlavə imkanlar yaradır.

Sonra Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova tərəfindən "Ailə rifahı naminə qadınları maarifləndirək" layihəsinin təqdimatı olub.

Çıxış edən qonaqlar göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlıqlarını bildiriblər.

Tədbir çərçivəsində Naxçıvan Muxtar Respublikasının 2021-ci ildəki sosial-iqtisadi inkişafından bəhs edən film nümayiş olunub və Naxçıvan Biznes Mərkəzində muxtar respublikanın sosial-iqtisadi inkişaf göstəriciləri, müəssisələr, istehsal edilən məhsullardan ibarət sərgiyə baxış olub.

Tədbirin sonunda İsveçrənin Azərbaycan Respublikasındakı səfirinin müavini, Cənubi Qafqaz üzrə İsveçrə Əməkdaşlıq Təşkilatının Regional direktorunun müavini Alberto Hernandezin "Ailə rifahı naminə qadınları maarifləndirək" layihəsinin iştirakçıları ilə görüşü olub.

**✍ Gülcamal TAHİROVA**

*İnsan sağlamlığının qorunması tibbi xarakterli tədbirlərin təşkili qədər keyfiyyətli ərzaq məhsulları ilə təminatdan da əhəmiyyətli dərəcədə asılıdır. Yerli xammal hesabına fəaliyyət göstərən istehsal müəssisələrinin sayının artması bir tərəfdən keyfiyyətli və ucuz məhsulların istehsalına, digər tərəfdən isə əhalinin maddi rifahının yaxşılaşdırılmasına xidmət edir. Aqrar sahədə qəbul olunan Dövlət proqramlarının icrası, güzəştli şərtlərlə kreditlərin verilməsi, müasir infrastrukturun yaradılması kənd təsərrüfatının müxtəlif istiqamətlərinin, xüsusilə də əkinçiliyin inkişafına əlverişli şərait yaradır, bol məhsul istehsalına və daxili bazarın tələbatının ödənilməsinə səbəb olur. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***“Azərbaycanda kənd təsərrüfatının inkişafına çox böyük dövlət dəstəyi var – subsidiyalar verilir, fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar. Texnikalar alınır, güzəştli şərtlərlə kreditlər verilir. Hazırda kənd təsərrüfatında böyük islahatlar aparılır, subsidiyaların verilməsi mexanizmi təkmilləşir, fermerlər üçün daha aydın, daha rahat mexanizm tətbiq olunur”.***

*Dövlət proqramı icra olunur*

# Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikasında da əhalinin etibarlı ərzaq məhsulları ilə təminatı istiqamətində görülən işlər ardıcıl xarakter daşıyır. Bu məqsədlə aqrar sahənin inkişafına xüsusi diqqət yetirilir, əkin dövriyyəsinə qatılan torpaqların sahəsi ildən-ilə artır, yerli məhsulların istehsalı stimullaş-





dırılır. Kənd təsərrüfatının xüsusi önəm kəsb edən sahələrindən biri də meyvəçilik və tərəvəzçilikdir. Muxtar respublikada kənd əhalisinin başlıca məşğulluq istiqamətlərindən olan bu sahənin perspektivi yüksək qiymətləndirilir, meyvəçiliyin və tərəvəzçiliyin inkişafına yönələn kompleks tədbirlər davam etdirilir. Görülən işlərin səmərəliliyinin artırılmasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın mühüm rolu vardır.

Proqramın icrası çərçivəsində 2021-ci ildə Naxçıvanda 145,6 hektar sahədə meyvə bağı salınmış, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 280 hektar sahədə aparılan əkin-bərpa işlərində 54 min 724 meyvə tingi və 2 min 725 kiloqram meyvə toxumundan istifadə olunmuşdur. Bu dövrdə 2 min 4 hektar meyvə və 355 hektar üzüm bağının plana alınaraq xəritələşdirilməsi torpaqlardan səmərəli istifadəyə nəzarətin davam etdirilməsinə şərait yaratmışdır.

Muxtar respublikada aqrar sektorun in-



kişafı hər zaman ön planda tutulur. Bu sahədə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, iqtisadi dəyəri yüksək layihələrin həyata keçirilməsinin təşviqi yerli xammal ehtiyatlarından istifadənin genişləndirilməsinə yol açır. Eyni zamanda kənd təsərrüfatına dövlət dəstəyinin ildən-ilə artırılması, subsidiyaların verilməsi və digər tədbirlər əkin sahələrini genişləndirməyə, rahat əkinbiçin aparmağa imkan yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Kənd təsərrüfatı sahəsində həyata keçirilən tədbirlər içərisində texnika ilə yanaşı, toxum və su təminatı da mühüm yer tutur. Artıq muxtar respublikada torpaq mülkiyyətçiləri məhsuldar yerli toxumlarla təmin edilir, eyni zamanda müasir hidrotexniki qurğuların, su anbarlarının tikilməsi yaz və payız suvarma mövsümünün mütəşəkkil keçirilməsinə imkan verir. Bütün bunlar kənd təsərrüfatı sahəsində məşğulluğu təmin etməklə yanaşı, həm də bol məhsul istehsalına və ixrac imkanlarının yaranmasına səbəb olub”.***

Ötən il Dövlət proqramının icrası ilə bağlı sahibkarlarla təşkil olunan görüşlərdə meyvə-tərəvəzin qurudulması, konservləşdirilməsi, tomat pastası, şərab, meyvə lavaşanası istehsalı sahələri üzrə hazırlanmış layihələrin təqdimatı keçirilmişdir. Təqdimatlar zamanı qeyd edilən layihələrin reallaşdırılması ilə bağlı nəzərdə tutulan güzəştlər barədə ətraflı məlumat verilmişdir.

2021-ci ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən meyvə-tərəvəz istehsalı ilə məşğul olan ailə təsərrüfatlarına 8 layihə üzrə 129 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Muxtar respublikada dövlət maliyyə dəstəyi hesabına 2 meyvə-tərəvəz konservləşdirilməsi, 1 meyvə qurudulması sahəsinin, bağçılıq, tingçilik, limonçuluq, üzümçülük istiqamətləri üzrə, ümumilikdə, 5 təsərrüfatın yaradılması və 2 təsərrüfatın genişləndirilməsi başa çatdırılmışdır. Sti-



mullaşdırıcı tədbirlərin davamı olaraq əkinçilərin 1988 ton toxumluq kartofunu idxal rüsumu ödəmədən muxtar respublikaya gətirmələrinə köməklik göstərilmişdir. Bakı şəhərinə 900 tondan çox kartof, 330 tondan çox soğan məhsulunun göndərilməsi təmin olunmuşdur.

Dövlət dəstəyi özünü, sadəcə, məhsul istehsalında büruzə vermir. Əhalini ilboyu keyfiyyətli meyvə-tərəvəz məhsulları ilə təmin etmək üçün həm istehsal bolluğu, həm də məhsulun keyfiyyətini itirmədən saxlanılması başlıca şərtlərdir. Bu məqsədlə göstərilən dövlət texniki və maliyyə dəstəyi yeni soyuducu anbarların və istixana təsərrüfatlarının yaradılması ilə nəticələnir. Ötən il Dövlət proqramının icrasına uyğun olaraq Naxçıvanda ümumi tutumu 1820 ton olan 6 soyuducu anbarın, ümumi sahəsi 8 min 80 kvadratmetr olan 5 istixana təsərrüfatının yaradılması, 5 istixana təsərrüfatının sahəsinin, ümumilikdə, 4 min 222 kvadratmetr genişləndirilməsi başa çatdırılmışdır. Həmçinin bu dövrdə tutumu 600 ton olan 1 soyuducu anbarın yaradılması davam etdirilmişdir.

Bazarın keyfiyyətli məhsulla təmin olunması üçün yerli istehsalın stimullaşdırılması, soyuducu anbarların yaradılması işin bir tərəfidirsə, digər vacib bir istiqamət isə keyfiyyətə nəzarətin təşkilidir. Proqramın icrası məqsədilə 2021-ci ildə “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən bu istiqamətdə işlər davam etdirilmişdir. Ötən il 184 halda meyvə-tərəvəz məhsullarından nümunələr götürülərək laboratoriya analizlərinə cəlb edilmiş, nümunələrin keyfiyyət göstəricilərinin qüvvədə olan normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyən olunmuşdur.

Meyvəçilik və tərəvəzçilik təsərrüfatlarının mümkün risklərdən və təbiət hadisələrindən sığortalanması bu sahədə fəaliyyət göstərən torpaq mülkiyyətçilərinin gəlirlərini qorumağın mühüm vasitəsidir. Digər tərəfdən yetişdirilən meyvə və tərəvəzin, eləcə də onlardan hazırlanan məhsulların satışı üçün hərtərəfli şəraitin yaradılması təsərrüfatçıların fəaliyyət sahələrini genişləndirməsində həvəsləndirici rol oynayır. Ötən il Dövlət proqramının icrası istiqamətində 84 sığorta müqaviləsi bağlanmışdır. Hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində və rayon mərkəzlərində keçirilən yarmarkalarda kənd təsərrüfatı, o cümlədən meyvə-tərəvəz məhsullarının satışı təmin olunmuşdur. Bunlarla yanaşı, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində may ayında göycə, noyabr ayında “Ailə təsərrüfatı məhsulları” satış yarmarkaları təşkil edilmişdir. Keçirilən yarmarkalar istehsal olunan məhsulların istehlakçılara birbaşa çatdırılması məqsədi daşımışdır.

Torpaq mülkiyyətçilərinə göstərilən dəstək iqtisadi istiqamətlə yanaşı, elmi cəhətlə də xarakterizə olunur. 2021-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Meyvə, tərəvəz və üzümçülük laboratoriyasında “Düzən və dağətəyi ərazilərdə becərilən süfrə üzüm sortlarının aqroekoloji polimorfizm xüsusiyyətləri, yeni genotipli sort, klon və formaların qiymətləndirilməsi”, “Naxçıvan Muxtar Respublikası ərazisində yayılan badam cinsinə daxil olan növlərin tədqiqi, onların biomorfoloji, bioekoloji xüsusiyyətlərinin öyrənilməsi və səmərəli istifadə yollarının araşdırılması”, “Ordubad rayonunda becərilən perspektivli çəyirdəkli meyvə sort və formalarının bioloji-təsərrüfat göstəricilərinin qiymətləndirilməsi” və “Ordubad rayonu ərazisində yayılmış badam sort və formalarının biomorfoloji, bioekoloji xüsusiyyətlərinin öyrənilməsi və genofond bağının salınmasına başlanması” mərhələləri üzrə elmi-tədqiqat işləri aparılmışdır. İl ərzində Bioresurslar İnstitutunun əməkdaşları tərəfindən meyvəçiliklə bağlı 1 dərs vəsaiti, 1 kitab, 3 buklet, 13 məqalə və 1 monoqrafiya nəşr edilmişdir.

Təsərrüfat sahiblərinin aqrotexniki qaydalara əməl olunması ilə bağlı maarifləndirilməsi meyvəçiliyin və tərəvəzçiliyin inkişafına təsir göstərən əsas faktorlardandır. Bu məqsədlə təşkil olunan görüşlər və hazırlanan maarifləndirici materiallar məhsul istehsalının artırılmasına xidmət edir. Ötən il meyvə və tərəvəz istehsal edən təsərrüfat sahibləri ilə 40 seminar-müşavirə keçirilmiş, 5 adda 160 nüsxə buklet hazırlanaraq paylanmışdır.

Dövlət proqramının icrası ilə bağlı teleradio və qəzet materiallarının hazırlanması da təmin edilmişdir. Bu istiqamətdə Naxçıvan televiziyasında “Ailə təsərrüfatları”, “Günün tələbi”, “Bərəkət”, “Zəhmətkeş” və “Naxçıvan üzümü” verilişlərinin, ümumilikdə, 21 sayı efirə təqdim olunmuşdur. “Nuhçıxan” İnformasiya Agentliyinin saytında 30 material yerləşdirilmiş, “Şərq qapısı” qəzetində 38 yazı dərc edilmişdir.

Görülən işlər deməyə əsas verir ki, Naxçıvanda daxili bazarda meyvə-tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi işi yeni nailiyyətlərlə davam edir.

**“Şərq qapısı”**

# Taktiki-xüsusi təlim olub



“Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı”na əsasən “Şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması” mövzusunda taktiki-xüsusi təlim keçirilib. Təlimə Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı bölmələri ilə bərabər Fövqəladə Hallar Nazirliyinin xilasedici bölmələri də cəlb edilib.



Şiddətli soyuqlarda döyüş əməliyyatlarını və xilasetmə tədbirlərini yüksək peşəkarlıqla aparmaq, idarəetmə orqanlarının əməliyyatların planlaşdırılmasında uzlaşmış fəaliyyətinə nail olmaq, komandir heyətinin bölmələrin idarə edilməsi üzrə bilik və bacarıqlarını təkmilləşdirmək məqsədilə təlimə cəlb edilmiş bölmələrlə məşqlər keçirilib.

Məşqlər zamanı bölmələrin qış şərtlərində ərazidə məskunlaşma qabiliyyətləri və təchizatları yoxlanılıb, qarlı-şaxtalı, çovğunlu havalar və çətin keçilə bilən ərazilər üçün nəzərdə tutulmuş təchizat, müxtəlif dağ ləvazimatları, döyüş vasitələri və ərzaqla təminata xüsusi diqqət yetirilib.

Şəxsi heyətin şiddətli soyuqlarda döyüş tapşırıqlarını yerinə yetirmə bacarıqlarının yoxlanıldığı taktiki-xüsusi təlimdə xüsusi təyinatlı qruplar qarlı-şaxtalı havalarda şərti düşmən arxasında taktiki fəaliyyətləri icra ediblər.

Təlimdə düşmənin hərbi texnikalarının pusquya salınaraq komandir heyətindən əsir götürülməsi üzrə birgə fəaliyyətlər yerinə yetirilib. Əlverişsiz hava şəraitindən istifadə edərək təxribata hazırlaşan şərti düşmənin terror qruplaşmasının fəaliyyətləri xüsusi təyinatlı bölmələrimiz tərəfindən aşkar edilib. Ərazinin çətin keçilə bilən relyefi üçün nəzərdə tutulmuş hərbi daşıma vasitələrinin köməyi ilə düşmənin terror fəaliyyətlərinin qarşısı alınıb. Çətin dağlıq şəraitdə həmlə qrupumuz tərəfindən pusquya salınan düşmənin hərbi kalonundan terror qruplaşmasının rəhbəri sağ olaraq ələ keçirilib.

Döyüş əməliyyatları zamanı yüksək dağlıq ərazilərdə qar uçqununa məruz qalmış və qarlı ərazilərdə itmiş şəxslərin axtarılıb tapılması, ilkin tibbi yardımın göstərilməsi və təxliyəsi məşq etdirilib. Beynəlxalq xilasetmə kurslarında təcrübə qazanmış xilasedicilərin də cəlb edildiyi təlimdə təhlükəsizlik qaydalarına əməl etməklə xüsusi aparat və avadanlıqlar vasitəsilə axtarış-xilasetmə və digər təxirəsalınmaz tədbirlər həyata keçirilib.

Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı bölmələrinin, Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının və Xüsusi Riskli Xilasetmə Xidmətinin şəxsi heyətinin gecə və gündüz, müxtəlif ərazi və iqlim şərtlərində kəşfiyyatın və xüsusi əməliyyatların aparılmasında, eləcə də axtarış-xilasetmə fəaliyyətlərində praktik vərdişləri təkmilləşdirilib. Dağlarda döyüş əməliyyatları aparan zaman ərazinin xüsusiyyətlərindən bacarıqla istifadə edən hərbi qulluqçularımız təlim rayonunda hazırladıqları sığınacaqlarda yaşayıb, gecələyiblər.

Şəxsi heyətə döyüş, təminat və təxliyə üzrə tapşırıqların yerinə yetirilməsi zamanı cəsarətli, dözümlü, iradəli və vətənpərvər olmaq ruhunda yüksək mənəvi keyfiyyətlərin aşıladığı təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olunub.

**Nəriman NƏCƏFOV**

# Tədbir keçirilib

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə 9-cu sinif şagirdləri üçün “Qlobal Pul Həftəsi” çərçivəsində “Milli pul nişanlarının dizayn və mühafizə fəlsəfəsi” adlı tədbir keçirilmişdir.



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Tədris-innovasiya sektorunun müdiri Murad Babayev açıb.

Daha sonra Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin direktoru Çingiz Rzayev keçirilən bu cür tədbirlərin şagirdlərin savadlılıq səviyyəsinin artırılması və əldə olunan biliklərin onların gələcək uğurlu karyerasına da öz töhfəsini verəcəyini qeyd etmişdir.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin rəisi Qənbər Xudiyev müxtəlif maarifləndirici tədbirlərin keçirilməsində əsas məqsədin muxtar respublikada şagird, tələbə və müəllim heyətinin iqtisadi və maliyyə məsələləri üzrə məlumatlılığının və rasional maliyyə davranışlarının artırılmasından ibarət olduğunu qeyd etmişdir.

Tədbir zamanı şagirdlərə Mərkəzi Bankın “Bank Savadlılığı” komandasının üzvü Nərgiz Allahverdiyeva tərəfindən pul haqqında ətraflı məlumat verilmişdir.

Daha sonra şagirdlər arasında milli valyutamızı daha yaxından tanımaq məqsədilə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşları tərəfindən oyun əsaslı tədris platforması olan “Kahoot” sistemi vasitəsilə yarış keçirilmiş, qaliblərə sertifikatlar və hədiyyələr təqdim olunmuşdur.

**Xəbərlər şöbəsi**

***Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi aqrar siyasət bu gün də ölkəmizdə uğurla həyata keçirilir. Dövlət proqramları, qanunlar qəbul olunur, kənd təsərrüfatının inkişafına hesablanmış tədbirlərə ciddi önəm verilir. Qeyd olunmalıdır ki, muxtar respublikamızda da aqrar sahədə qazanılan uğurlar getdikcə artır. Doğma diyarımızın iqlim şəraiti, torpaqlarımızın münbitliyi əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olmasına imkan verib.***



*Mütəxəssis sözü*

## Taxıl sahələrinin aqrar sığorta olunması taxılçılığın inkişafına müsbət təsir göstərəcəkdir

Əhalini ərzaqla, heyvandarlığı yemlə və sənayeni xammalla təmin etmək üçün dənli taxıl bitkilərinin əhəmiyyəti olduqca böyükdür. Odur ki, taxıl istehsalı həcminin artırılması və keyfiyyətinin yaxşılaşdırılması vacibdir.

Bu sahəyə hər il diqqət artırılır, texnika, toxum və gübrə təminatı, qapalı suvarma şəbəkələrinin qurulması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, məhsul istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə yardımların və güzəştli şərtlərlə kreditlərin verilməsi taxılçılığın inkişafına və bol məhsul istehsalına imkanlar açır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Kəngərli rayonu ərazisində qapalı suvarma şəbəkələrinin açılışı zamanı demişdir: ***“Muxtar respublikada taxılın məhsuldarlığının artırılması üçün meliorativ tədbirlər görülür, əhaliyə lazımi texnikalar alınıb verilir, maarifləndirmə işləri aparılır, keyfiyyətli toxum sortlarından istifadə olunur. Məqsəd ondan ibarətdir ki, əkilən torpaqlardan bol məhsul götürülsün. Əgər yaxşı məhsul götürə bilmiriksə, bu, muxtar respublikamızın kənd təsərrüfatı sahəsində geriləməsinə, məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Eyni zamanda əkinçi də qazanc əldə edə bilmir. Ona görə də həm dövlət, həm də əhali birgə səy göstərməlidir ki, əkilən torpaqlardan səmərəli istifadə olunsun, yüksək məhsul götürülsün”.***

Taxılçılıqla məşğul olan fermerlər taxıldan yüksək məhsul əldə etmək üçün bütün aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə yerinə yetirməlidirlər. Taxıl əkiləcək sahədə növbəli əkin sistemi tətbiq olunmalı, keyfiyyətli şum aparılmalı, cücərmə və təmizlik faizi yüksək olan toxum tədarükü edilməli, toxumun dərmanlanmasına və şırım üsuluna üstünlük verilməli və səpini optimal müddətdə aparılmalıdır. Göstərilən aqrotexniki tədbirlərə əməl edilərsə, yüksək məhsuldarlığın əsası qoyular, gələcəkdə bol və keyfiyyətli məhsul əldə etmək mümkün olar.



Bütün aqrotexniki tədbirlərlə yanaşı istehsalçının iradəsindən kənarda baş verən təbiət hadisələri, yəni texniki tədbirlərlə qarşısını almaq mümkün olmayan risklərin baş verməsi (qasırğa, fırtına, dolu, sel və ya su basma, şaxtavurma (donvurma), normadan artıq olan qar yağıntıları, yanğınlar, torpaq sürüşməsi, zəlzələlər, bitki xəstəlikləri və zərərvericiləri) vardır. İstehsalçıların əksəriyyəti min bir əziyyətlə məhsul yetişdirir, yığım başlayanda isə hansısa təbii fəlakət baş verir və onların məhsulları ya tam, ya da qismən ziyan görür, çəkdikləri zəhmət hədər gedir. Yəni istehsalçılar yetişdirdikləri məhsulun zay olması ucbatından heç bir mənfəət, gəlir götürə bilmirlər. Risk və fəlakətlərlə üzləşən istehsalçılar aqrar sığortadan səmərəli istifadə edərək bu riskləri kompensasiya edə bilərlər. Aqrar sığorta istehsalçının gəlirlərində sabitliyin, ərzaq təhlükəsizliyinin təmin olunmasına, idxaldan asılılığın azaldılmasına və ixrac potensialının artmasına mühüm töhfə verməklə bərabər, sahibkarların gəlirlərinə müsbət təsir edir.

Taxıl sahələrinin sığortalanması böyük xərc tələb etmir. Az məbləğ müqabilində istehsalçılar öz taxıl sahələrini dəymiş zərərdən sığortalaya bilərlər. Başqa sözlə, aqrar sığorta istehsalçılara böyük maliyyə yükü yaratmadan onların təsərrüfatlarını bütün hallarda əsas risklərdən qorumaq imkanı verir.

Qeyd edək ki, bitkiçilik məhsulları üzrə sığorta məbləği 1 hektardan əldə edilmiş məhsulun dəyərinin 70 faizi həcmində hesablanmışdır. Bu dəyərin hesablanması zamanı 1 hektar əkinə görə məhsuldarlıq göstəricisi əsas götürüldüyündən və bu göstərici şəhər və rayonlar üzrə fərqli olduğundan sığorta məbləği də buna uyğun olaraq diferensiallaşdırılmışdır. Sığortahaqqı isə bütün hallarda sığorta məbləğinin 5 faizi həcmində müəyyən edilmişdir. Həmin sığortahaqqının 50 faizinin istehsalçı, 50 faizinin isə dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi nəzərdə tutulmuşdur. Məsələn, Babək ərazisində 1 hektar buğda əkini sahəsində orta məhsuldarlıq 32 sentner, 1 sentner buğdanın qiyməti isə 35 manat olduğundan həmin sahədən əldə edilmiş buğda məhsulunun dəyəri 1120 manat (32*35) təşkil edir. Bu halda sığorta məbləği 784 manat (1120*70 faiz) olacaq. Sığorta məbləğinin 5 faizi həcmində sığortahaqqı müəyyən edildiyindən cəmi sığortahaqqı 39,2 manat (784*5 faiz) təşkil edəcək. Sığortahaqqının 50 faizi dövlət büdcəsi vəsaiti hesabına ödənildiyindən təsərrüfatçı tərəfindən ödənilən sığortahaqqı 19,6 manat (39,2*50 faiz) olacaq. Bu isə o deməkdir ki, əvvəlcədən əkilmiş 1 hektar buğda sahəsi üçün ödənilmiş 19,6 manat kiçik sığortahaqqı qarşılığında baş vermiş hər hansı sığorta hadisəsi zamanı müvafiq komissiyanın rəyinə uyğun olaraq 1 hektar buğda sahəsinə dəymiş zərərə görə Aqrar Sığorta Fondu tərəfindən zərərçəkən sığortalıya 784 manat məbləğində vəsait ödəniləcəkdir.

İstehsalçıların maliyyə gəlirlərinin qorunması və dövlətin taxılçılığın inkişafı ilə bağlı siyasətinin həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsulları istehsalçılarına əkin sahəsinə, məhsul istehsalına, toxum və ting satışına görə verilən subsidiya əmsallarının təsdiq edilməsi haqqında” Qərarında dəyişiklik edilmişdir.

Dəyişikliyə əsasən 10 hektar və daha çox torpaq sahəsində sığortalanmalı olan bitkinin becərilməsinə görə əkin subsidiyası sığorta müqaviləsi bağlandıqdan sonra veriləcəkdir.

Həmin subsidiyanı ala bilməsi üçün fermerlər əkinlərini aqrar sığorta etdirməlidirlər. Əks halda, yəni sığorta müqaviləsini əldə etməyən fermerlərə adıçəkilən qaydalara əsasən əkin subsidiyasının verilməsindən imtina olunacaqdır. Aqrar sığorta müqaviləsi bitkilərdə cücərtilər alındıqdan sonra sahəyə baxış keçirilir və bağlanılır.

Torpaqlarımızın sağlamlaşdırılması, mühafizəsi, ondan səmərəli istifadə olunması, münbitliyinin bərpası və artırılması, habelə ekoloji cəhətdən təmiz və keyfiyyətli bol məhsul istehsal edilməsi hamımızın müqəddəs və təxirəsalınmaz işidir.

**Zəkəriyyə GÖZƏLOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri***

## Bakıdan 10 medalla geri döndülər




***Şağan Olimpiya İdman Kompleksində MMA, pankration və qrepplinq üzrə Bakı şəhər açıq birinciliyi keçirilib. Muxtar respublikanı yarışda Naxçıvan Kikboksinq Federasiyasının sədri, məşqçi Xəyal Abdullayevin rəhbərliyi ilə “Turan” Döyüş Klubunun 6 idmançısı təmsil edib.***

İdmançılarımızdan ən yaxşı nəticə Nurəddin Əliyevə məxsus olub. O, 12-13 yaşlılar arasında 30 kiloqram çəki dərəcəsi üzrə həm MMA, həm də qrepplinq növündə qızıl medal əldə edərək ikiqat sevinc yaşayıb. Dünya çempionu Sadiq Kərimov (14-15 yaş, 47 kiloqram) qrepplinqdə ikinci olmasına baxmayaraq, MMA növündə birinciliyi əldən verməyib.

Gələcəyinə böyük ümidlər bəslənilən digər idmançımız Oğuz Məmmədli (12-13 yaş, 42 kiloqram) 1 qızıl və 1 gümüş medalla adını mükafatçılar sırasına yazdırıb. Bu tipli yarışlarda ilk təcrübəsini yaşayan Mətin Tapdıqovun (14-15 yaş, 42 kiloqram) debütü uğurlu alınıb. Belə ki, Mətin bütün rəqiblərini məğlub edərək yarışı qrepplinq üzrə qızıl medalçı olaraq bitirib. Məhəmmədəli Qasımov (14-15 yaş, 53 kiloqram) təkcə qrepplinqdə, Fuad Quliyev (18-19 yaş, 71 kiloqram) isə hər iki növdə üçüncü olub.

Nəticələrə əsasən təmsilçilərimiz yarışı 5 qızıl, 2 gümüş və 3 bürünc medalla tamamlayıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Yeni nəşrlər*

## Torpaq mühitinin qorunması və münbitliyinin artırılması istiqamətində yazılan qiymətli monoqrafiya



Dünyada baş verən səhralaşma və torpaq deqradasiyası prosesləri Naxçıvan Muxtar Respublikasının da torpaqlarının münbitliyinin pozulmasına təsirini göstərir. Ərazidə müxtəlif təbii və antropogen təsirlər nəticəsində torpaqlarda baş verən deqradasiya prosesləri münbitliyin azalmasına, məhsuldarlığın aşağı düşməsinə və əhalinin ərzaq ehtiyatlarının ödənilməsində iqtisadi-sosial çətinliklər yaradır.

Bu məqsədlə AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun “Torpaq ehtiyatları” laboratoriyasının rəhbəri, aqrar elmləri üzrə fəlsəfə doktoru, dosent Sahib Hacıyevin və AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Torpaqların ekologiyası şöbəsinin kiçik elmi işçisi, dissertant, gənc tədqiqatçı Günel Ağazadənin müəllifliyi ilə “Naxçıvan Muxtar Respublikasında torpaq mühitinin qorunması problemləri” adlı monoqrafiya nəşr olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının ərazisində torpaqların münbitliyinin qorunması və səmərəli istifadə olunması üçün torpaq-bitki tədqiqatlarının aparılması əsas problemlərdən biridir. Məhz buna görə də muxtar respublikada torpaqların münbitliyinin qorunması və səmərəli istifadə olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən 21 noyabr 2014-cü ildə muxtar respublikada torpaq-iqlim şəraitinə uyğun təsərrüfatların ixtisaslaşdırılmasını aparmaq üçün aidiyyəti müəssisə və təşkilatlara tapşırıqlar verilmişdir. Bu istiqamətdə AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun “Torpaq ehtiyatları” laboratoriyasında məqsədyönlü elmi-tədqiqat işləri aparılmışdır.

Verilmiş tapşırığa əsasən AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun “Torpaq ehtiyatları” laboratoriyasının əməkdaşları tərəfindən 2016-cı ildən başlayaraq Naxçıvan Muxtar Respublikasının inzibati rayonlarında torpaq-kadastr yarımrayonlaşdırılması üzrə aparılan tədqiqat işləri 2020-ci ildə yekunlaşdırılmışdır. Hər bir inzibati rayon üzrə toplanılmış ədəbiyyat, xəritə və çöl materialları təhlil edilərək yekun variantı əsasında torpaq-kadastr yarımrayonlarının xəritə-sxemi tərtib olunmuş və nəticədə, bu mövzuya həsr edilmiş monoqrafiya 2021-ci ildə işıq üzü görmüşdür.

Monoqrafiyanın giriş hissəsində son dövrlərdə dünyada baş verən səhralaşma-torpaq deqradasiyası proseslərinin muxtar respublika ərazisində torpaq mühitinə təsiri haqqında ədəbiyyat məlumatları, mövzunun aktuallığı, məqsəd və vəzifələr öz əksini tapmışdır.

Üç fəsildən ibarət olan monoqrafiyanın birinci fəslində muxtar respublikada yayılan torpaqların formalaşmasına təsir göstərən fiziki-coğrafi (relyef, geoloji və geomorfoloji quruluş, iqlim, hidroloji və hidrogeoloji şəraiti, bitki və heyvanlar aləmi və sair) və antropogen amillər haqqında ətraflı məlumat verilir.

İkinci fəsildə əkinçiliyin inkişaf tarixi, aparılan torpaq və aqroekoloji tədqiqatlar, ərazidə yayılan deqradasiya proseslərinin torpaq mühitinin formalaşmasına mənfi təsiri, onların aradan qaldırılması yolları öz əksini tapmışdır.

Üçüncü fəsildə isə monoqrafiyanın əsas məzmununu təşkil edən və ərazidə torpaq münbitliyinin artırılması məqsədilə onların ekoloji qiymətləndirilməsi, aqroistehsalat qruplaşdırılması və muxtar respublikanın inzibati rayonlarında təsərrüfatların daha dəqiq ixtisaslaşdırılması üçün təbii-torpaq kadastr yarımrayonlarına ayrılması problemləri müəyyənləşdirilmişdir.

Nəticədə, Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların mühitinin qorunması və artırılması üçün istiqamətlər müəyyənləşdirilmişdir. Bu baxımdan yeni nəşri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı”nın icrası istiqamətində də atılan uğurlu elmi-nəzəri addım hesab etmək olar. Eyni zamanda monoqrafiyada muxtar respublikanın iqtisadi-sosial inkişafı, aqrar sektorda kənd təsərrüfatı məhsullarının artırılması və keyfiyyətinin yüksəldilməsi məqsədilə bir neçə tövsiyə və təkliflər irəli sürülməklə üç dildə xülasə yazılmışdır.

Bioresurslar İnstitutu əməkdaşlarının hazırladıqları yeni nəşri muxtar respublikada torpaq-iqlim şəraitinə uyğun təsərrüfatların ixtisaslaşdırılmasını aparmaq, torpaq mühitinin qorunması və münbitliyinin artırılması istiqamətində yazılan qiymətli monoqrafiya hesab etmək olar.

**Varis QULİYEV**
***aqrar elmlər doktoru, dosent***

## Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi *2022-2023-cü tədris ili üçün Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyə şagird qəbulu elan edir*

Liseyə şagird qəbulu 2022-2023-cü tədris ili üzrə ümumtəhsil məktəblərinin VIII və IX siniflərində təhsil alacaq oğlan və qız şagirdləri arasında müsabiqə yolu ilə aparılır.

Liseyə qəbul olmaq üçün aşağıdakı sənədlər tələb olunur:

- *şəxsiyyət vəsiqəsinin surəti;*
- *3x4 santimetr ölçüdə 2 ədəd fotoşəkil;*
- *valideynin ərizəsi;*
- *təhsil aldığı məktəbdən arayış;*
- *sağlamlıq haqqında arayış.*

Sənədlər 4 mart 2022-ci il tarixdən 25 aprel 2022-ci il tarixədək saat $9^{00}$-dan $18^{00}$-dək Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbdə qəbul ediləcəkdir.

Müsabiqə 7 may 2022-ci il tarixdə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbdə saat $10^{00}$-da keçiriləcəkdir.

Şagirdlərin nəzərinə çatdırılır ki, liseyə qəbul üçün keçiriləcək müsabiqə test formatında aparılır. Müsabiqədə şagirdlərə Azərbaycan dili fənni üzrə 15, riyaziyyat fənni üzrə 15, fizika fənni üzrə 10, ingilis dili fənni üzrə 10, kimya fənni üzrə 20, biologiya fənni üzrə 20, coğrafiya fənni üzrə 5, tarix fənni üzrə 5 sual olmaqla, ümumilikdə, 8 fəndən 100 sual təqdim olunacaqdır. Müsabiqədə şagirdlərə 3 saat vaxt veriləcəkdir.

Muxtar respublika üzrə hər sinifdən 30 qız, 30 oğlan olmaqla, ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul olunacaqdır.

***Ünvan: Naxçıvan şəhər 8 nömrəli tam orta məktəb***
***Naxçıvan şəhəri, Nizami küçəsi 42.***
***Əlaqə nömrəsi: (036) 545-13-94***

### *İtmişdir*

Babayev Rəcəb İntizam oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Eminov Miryasin Seyidəli oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 204